AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Q Ə R A R

№010/504

Bakı şəhəri "30" yanvar 2026-cı il

Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2025-ci il 4 – 30 yanvar tarixli rəsmi məlumatlarına əsasən, Qabon Respublikasının Estuar (Estuaire) əyalətində, Avstraliya İttifaqının Yeni Cənubi Uels (New South Wales) ştatında, Avstraliya Paytaxt Ərazisi (Australian Capital Territory) inzibati ərazisində, Rumıniyanın Tulça (Tulcea), Timiş (Timish) kantonlarında, Xorvatiya Respublikasının Zaqrebaçka (Zagrebacka) kantonunda **yüksək patogen quş qripi** xəstəliyi, Liviya Dövlətinin Misrata (Misratah), Surt (Surt), Əl Mərqab (Al Marqab) dairələrində **dabaq** xəstəliyi, İsveç Krallığının Esterqotlandiya (Östergötland) əyalətində isə qeydə alınmış **Nyukasl** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

Qərara alıram:

1. ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

Yüksək patogen quş qripi xəstəliyi üzrə:

1.1. 2022-ci il 25 may tarixli 034/209 nömrəli qərarla Qabon Respublikasının Estuar əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.2. 2024-cü il 24 iyun tarixli 038/358 nömrəli qərarla Avstraliya İttifaqının Yeni Cənubi Uels ştatına tətbiq edilmiş məhdudiyyət;

1.3. 2024-cü il 22 iyul tarixli 044/364 nömrəli qərarla Avstraliya İttifaqının Avstraliya Paytaxt Ərazisi inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

1.4. 2024-cü il 31 oktyabr tarixli 070/390 nömrəli qərarla Rumıniyanın Tulça kantonuna tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR
Abbasov T.K.
30.01.2026

1.5. 2024-cü il 3 dekabr tarixli 076/396 nömrəli qərarla Rumıniyanın Timiş kantonuna tətbiq edilmiş məhdudiyyət;

1.6. 2024-cü il 11 dekabr tarixli 078/398 nömrəli qərarla Xorvatiya Respublikasının Zaqrebaçka kantonuna tətbiq edilmiş məhdudiyyət.

Dabaq xəstəliyi üzrə:

1.7. 2024-cü il 18 yanvar tarixli 004/324 nömrəli qərarla Liviya Dövlətinin Misrata dairəsinə tətbiq edilmiş məhdudiyyət;

1.8. 2024-cü il 24 yanvar tarixli 006/326 nömrəli qərarla Liviya Dövlətinin Surt dairəsinə tətbiq edilmiş məhdudiyyət;

1.9. 2024-cü il 4 mart tarixli 021/341 nömrəli qərarla Liviya Dövlətinin Əl Mərqab dairəsinə tətbiq edilmiş məhdudiyyət.

Nyukasl xəstəliyi üzrə:

1.10. 2024-cü il 28 oktyabr tarixli 068/388 nömrəli qərarla İsveç Krallığının Esterqotlandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət.

2. Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

3. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

5. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR
Abbasov T.K.
30.01.2026